AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

1 MART 2025-ci il ŞƏNBƏ № 46 (8094) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLIKA-NEWS.AZ



*Gün gələcək Azərbaycan dünyaya günəş kimi doğacaq.*



# Regionda iqtisadi güc mərkəzi

## *Dayanıqlı inkişaf modeli ölkəmizin nüfuzunun daha da artmasına, əsas siyasi aktora çevrilməsinə stimul verir*

***Azərbaycanın sürətli inkişafı onun beynəlxalq aləmdə nüfuzunun artmasına, regionun əsas siyasi aktoruna çevrilməsinə səbəb olur. Bu dayanıqlı və möhkəm güc arxitekturası, eyni zamanda dövlətimizin yürütdüyü siyasi iradənin və qətiyyətin nümunəsidir. Respublikamızın regionda güc mərkəzinə çevrilməsini şərtləndirən başlıca amillərdən biri iqtisadi müstəqilliyin möhkəmlənməsi, ölkəmizin strateji maliyyə qüdrətinin artmasıdır.***

Prezident İlham Əliyevin yerli telekanallara müsahibəsində ölkəmizin iqtisadi göstəriciləri ilə bağlı səsləndirdiyi rəqəmlər bunu bir daha təsdiqləyir. Dövlət başçısı həmin müsahibəsində Azərbaycanın əldə etdiyi uğurlara, regionda və dünyada baş verən proseslərə ətraflı nəzər salaraq bir sıra məsələlərlə bağlı ölkəmizin qətiyyətli mövqeyini ifadə etdi. Aparılan ardıcıl iqtisadi islahatların, qeyri-neft sektorunun inkişafı, müasir texnoloji yeniliklərə əsaslanan sənaye müəssisələrinin yaradılması istiqamətində görülən işlərin müsbət nəticələr verdiyini bildirən ölkə başçısı qeyd etmişdir: "İnkişaf templəri, bugünkü dünyanın mənzərəsinə nəzər salsaq, müsbət sayıla bilər. Yəni Ümumi Daxili Məhsul 4 faizdən çox artmışdır. Əslində bizim üçün əsas göstərici qeyri-neft sektorunun inkişafıdır. Biz son vaxtlar neft hasilatında tənəzzüllə üzləşmişdik və aparılan danışıqlar, göstərilən səylər nəticəsində artıq bu tənəzzülə son qoyulacaq və neft hasilatı sabit qalacaq. Beləliklə, neft hasilatının azalması bundan sonra Ümumi Daxili Məhsula mənfi təsir göstərməyəcək".

Ölkə Prezidenti müsahibəsində söylədiyi fikirlərlə Azərbaycanın nəqliyyat-kommunikasiya qovşağına, Avrasiyada enerji təhlükəsizliyinin təmin olunmasında açar dövlətə çevrildiyini, milli maraqların müdafiəsi üçün hər şeyi gözə alan, vətəndaşlarının qürurla yaşadığı və fəxr etdiyi ölkə olduğu reallıqlarını beynəlxalq aləmə bir daha çatdırdı: "Burada geniş coğrafiya, insan resursları, təbii sərvətlər, nəqliyyat-kommunikasiya xətləri və birlik vardır. Hesab edirəm ki, D-8 də bu boşluğu doldura bilər və bu ölkələrdə yenə də deyirəm, 1 milyarddan çox, bəlkə də 1 milyard 300 milyon insan yaşayır. Müsəlman ölkələrinin iqtisadiyyatının 60 faizi D-8-dədir, əhalinin 60 faizi yenə də D-8 ölkələrindədir. Ona görə bu, bir fürsətdir. Bu fürsəti qaçırmaq olmaz, vaxt itirmək olmaz və biz bu gündəliklə bu təşkilata üzv oluruq. Hesab edirəm ki, bizim fikirlərimiz və təkliflərimiz diqqətlə nəzərə alınacaqdır".

Azərbaycanın D-8 kimi beynəlxalq iqtisadi əməkdaşlıq təşkilatına üzv olması ölkəmizin dünya miqyasında artan nüfuzunun və ona göstərilən etimadın bariz nümunəsidir. Bu üzvlük Azərbaycanın yalnız regional deyil, qlobal səviyyədə də strateji mövqeyini möhkəmləndirir. D-8 üç qitəni əhatə edən, 4 trilyon ABŞ dollarından artıq Ümumi Daxili Məhsul (ÜDM) ilə qlobal iqtisadiyyata mühüm töhfə verən bir təşkilatdır. Həmçinin 130 milyard dollar həcmində ticarət dövriyyəsinə malik bu təşkilat üzv dövlətləri ilə geniş iqtisadi əlaqələrin mövcudluğunu nümayiş etdirir. Böyük iqtisadi potensialı ilə diqqətçəkən D-8-ə üzv olan dövlətlərin ümumi əhalisi dünya müsəlmanlarının 60 faizini təşkil edir ki, bu da təşkilatın İslam dünyası üçün iqtisadi, həm də mədəni və siyasi əhəmiyyətini artırır. Belə bir platformada Azərbaycanın yer alması, ölkəmizin regionda və dünyada İslam həmrəyliyinə verdiyi töhfəni artırmaqla yanaşı, həm də qlobal iqtisadi siyasətə təsir imkanlarını genişləndirir. Azərbaycanın bu təşkilata qoşulması, təkcə ölkənin iqtisadi yüksəlişi üçün deyil, həm də İslam ölkələrinin iqtisadi əməkdaşlığını daha da möhkəmləndirmək və onların qarşılıqlı faydalı əlaqələrini inkişaf etdirmək məqsədini daşıyır. Bu, Azərbaycanı həm də müsəlman dünyasında öz nüfuzunu daha da artıran, beynəlxalq aləmdə tanınan bir dövlət olaraq göstərir. Bu üzvlük Azərbaycan üçün yeni iqtisadi imkanlar açmaqla yanaşı, həm də beynəlxalq siyasətdə daha güclü mövqe tutmasına zəmin yaradır.

Azərbaycan özünün "balanslı siyasəti" çərçivəsində formalaşdırdığı xarici siyasətinə uyğun olaraq çoxtərəfli diplomatiya əsasında hərəkət edir, ölkənin hər hansı bloka daxil olması əvəzinə çoxölçülü münasibətlərə üstünlük verir. Ölkəmizin beynəlxalq nüfuzu yüksəlib, respublikamız regionda aparıcı iqtisadi gücə çevrilib. Azərbaycanın təşəbbüskarı olduğu, tərəfdaşları ilə birgə həyata keçirdiyi bir sıra irimiqyaslı layihələr nəinki regionun, eləcə də qonşu bölgələrin inkişafına mühüm töhfə verir. Bu layihələrdən Bakı-Tbilisi-Ceyhan neft boru kəmərini, Bakı-Tbilisi-Ərzurum qaz boru xəttini, ötən il istismara verilmiş Bakı-Tbilisi-Qars dəmir yolunu qeyd etmək olar. Eyni zamanda hazırda reallaşdırılan, Avropanın enerji təhlükəsizliyini təmin edən nəhəng "Cənub Qaz Dəhlizi" layihəsi, o cümlədən Trans-Anadolu (TANAP) və Trans-Adriatik (TAP) boru kəmərləri kimi layihələr, Cənubi Qafqaz boru kəmərinin genişləndirilməsi, "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin reallaşdırılması Azərbaycanın artan gücünü göstərir. Bütün bunlarla yanaşı, ölkədə iqtisadi islahatlar davam edir, iqtisadiyyatın qeyri-neft sektoru, xüsusən aqrar sahə son illərdə sürətlə inkişaf edir.

(davamı 2-ci səhifədə)

(əvvəli 1-ci səhifədə)

İqtisadi uğurlar sayəsində Azərbaycan regionda genişmiqyaslı layihələr həyata keçirə bilir. Dövlətimizin iqtisadi modeli təkcə neft və qaz sektoruna deyil, həm də kənd təsərrüfatı, turizm, logistika və digər sahələrə əsaslanır. Ölkəmizin regionda nəqliyyat və enerji dəhlizləri yaratmaqla həm öz iqtisadiyyatını diversifikasiya etməsi, həm də beynəlxalq ticarətə töhfə verməsi təqdirəlayiqdir. Məsələn, Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri, Xəzər regionunda enerji və nəqliyyat layihələri Azərbaycanın regionda etibarlı bir tərəfdaş kimi mövqeyini gücləndirir. Nəhayət, dünyada yeni güc mərkəzi formalaşır və beynəlxalq aləm də bu qüvvə ilə hesablaşmaq məcburiyyətindədir. Eyni zamanda inteqrasiya olunmuş iqtisadi şərait türkdilli dövlətlər arasında faydalı və qarşılıqlı əlaqələrin artırılmasına xidmət edir. Çox sevindirici məqamdır ki, Azərbaycan, bütün türkdilli ölkələr bu prosesdə iştirak edir və qarşılıqlı əməkdaşlığa öz töhfələrini verir.




# *Dayanıqlı inkişaf modeli ölkəmizin nüfuzunun daha da artmasına, əsas siyasi aktora çevrilməsinə stimul verir*

Dövlətin xarici siyasəti qarşılıqlı əməkdaşlıq və heç bir ölkənin daxili işlərinə qarışmamaq prinsiplərinə əsaslanır və bu yanaşma beynəlxalq hüquq normalarına uyğun həyata keçirilir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycan 120 ölkəni birləşdirən, BMT Baş Assambleyasından sonra ikinci böyük beynəlxalq təsisat olan Qoşulmama Hərəkatına 4 il ərzində uğurla sədrlik edib. Bu, ölkəmizin beynəlxalq arenada etibarlı bir tərəfdaş kimi mövqeyini daha da möhkəmləndirib və Azərbaycanın qlobal məsələlərdə fəal iştirakını nümayiş etdirib. Bundan əlavə, 2023-cü ildə Azərbaycanın BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29-a ev sahibliyi etməsi beynəlxalq tərəfdaşlarla əməkdaşlığın dərinləşməsinə, həmçinin qlobal problemlərin həllinə töhfə verir. Bu mötəbər tədbir yalnız ekoloji məsələlər üzrə əməkdaşlıq deyil, həm də Azərbaycanın dünya birliyində rolunu gücləndirən bir addımdır.

Qeyd etmək lazımdır ki, inkişafa gedən yol dünya iqtisadiyyatına tam inteqrasiyadan keçir. Məhz bu səbəbdən Azərbaycan ölkə iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiya kursunu seçib və hazırda da bunu uğurla davam etdirir. 44 günlük Vətən müharibəsindən sonra da güclü Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatına uğurlu inteqrasiyası dayanmayıb. Cənubi Qafqazın ən perspektivli ölkəsi olan Azərbaycan qloballaşan dünyaya inteqrasiyanın yeni mərhələsindədir. Azərbaycan dövləti ilə iqtisadi və siyasi tərəfdaşlığı genişləndirmək istəyən ölkələrin sayı artmaqdadır.

Azərbaycanla əməkdaşlıq etməkdə maraqlı olan təşkilatlardan biri də bu gün dünya əhalisinin təqribən yarısının yaşadığı coğrafiyanı əhatə edən Şanxay Əməkdaşlıq Təşkilatıdır. İkinci Qarabağ müharibəsindəki tarixi Qələbəmizdən və uzunmüddətli münaqişənin həllinə nail olaraq ərazi bütövlüyümüzü bərpa etdikdən sonra ŞƏT-ə üzv ölkələrin, xüsusilə Çinin dövlətimizə marağı artıb. Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri üzrə qarşılıqlı fəaliyyət Azərbaycan ilə ŞƏT-ə üzv dövlətlər arasında əməkdaşlığın vacib sahəsini təşkil edir. Çünki ŞƏT regional təhlükəsizlik, iqtisadi inkişaf və mədəni əməkdaşlıqda mühüm rol oynayır və beynəlxalq münasibətlərdə diqqətlə izlənilməli olan bir aktordur. Azərbaycan bu təşkilatda dialoq tərəfdaşı statusuna sahib olmasına baxmayaraq, onun fəaliyyətində yaxından iştirak edir. Bu qurumla ölkəmiz arasında əməkdaşlıq sahələrini əks etdirən memorandum imzalanıb. Azərbaycanın təşəbbüsləri və müəllifliyi ilə gerçəkləşən layihələr bugünkü mənzərəni yaradıb. Azərbaycan 500 milyard dollar həcmində ticarət dövriyyəsi olan Çinlə Avropa İttifaqı arasında mühüm nəqliyyat-logistika mərkəzinə çevrilib və ölkəmiz iki qlobal güc arasında əlaqələrin inkişafı üçün əhəmiyyətli mövqedə dayanır.

Azərbaycan Qərbə özünün Avrasiya məkanındakı əhəmiyyətli geosiyasi vəziyyətini və zəngin enerji resurslarını lazımi səviyyədə təqdim etməklə, Cənubi Qafqazın lider dövləti statusunu qoruyub saxlayır. Regionda və dünyada baş verən əsas iqtisadi, siyasi, mədəni hadisə və proseslərdə Azərbaycan dövləti layiqincə təmsil olunur, öz mövqeyini bildirir və mənafelərini qoruyur. Respublikamız enerji təminatının şaxələndirilməsində Avropa İttifaqı üçün mühüm bir ölkədir. Yerli televiziya kanallarına müsahibəsində də bir sıra məqamlara toxunan dövlət başçısı bildirib ki, Azərbaycanın Orta Dəhlizlə bağlı mövqeyi, sadəcə, tranzit ölkəsi olmaq və tranzitdən ödənişlər almaqdan ibarət deyil. Ölkəmizin hədəfi özəl sektora bundan faydalanmağa kömək etmək üçün dəhlizin keçdiyi Azərbaycan ərazisində müəssisələr yaratmaqdır. Orta Dəhlizin Azərbaycan seqmentinin infrastrukturu təkmilləşdirilmişdir.

Hazırda dünyada, xüsusilə də inkişaf etməkdə olan ölkələr üçün müstəqil, balanslı xarici siyasi kurs yürütmək olduqca çətindir. Azərbaycan çox az sayda dövlətlərdən biridir ki, tam müstəqil və həm də qətiyyətli xarici siyasət yürüdür. Azərbaycan Avropa İttifaqının 10 üzvü ilə yanaşı, Çinlə strateji tərəfdaşlıq müqaviləsi, Türkiyə, Özbəkistan kimi ölkələrlə müttəfiqlik bəyannaməsi imzalayıb. Beləliklə, rəsmi Bakı Mərkəzi Asiya, Cənubi Qafqaz və Xəzəryanı regionu geniş coğrafiyada sülh, sabitlik və əməkdaşlıq platformasına çevirən siyasət yürüdür.

**Mustafa KAMAL,**
**"Respublika".**